# Tələbələr tələbələrin gözü və sözü ilə

Hər hansı bir ali məktəbdə yüksək keyfiyyətli təhsil vermək üçün bir sıra vacib amillərə xüsusi diqqət yetirilməlidir. Müasir təhsil modelinin və tədris proqramlarının tətbiqi, tələbələrin bilik səviyyələrinin müasir metodlarla qiymətləndirilməsi, geniş beynəlxalq əlaqələrin yaradılması, zəngin və müasir kitabxana sisteminin qurulması, tələbə-müəllim münasibətlərinin yeni ab-havada qurulması, tədris prosesində şəffaflığın təmin olunması, təhsildə korrupsiya elementlərinə qarşı ciddi mübarizə aparılması, ali məktəblər arasında halal rəqabət atmosferinin yaradılması və s. belə amillərdəndir.

Bu yolda ən vacib amillərdən biri kimi ali məktəblərdə yüksək səviyyəli kadrların işə cəlb edilməsi qeyd edilməlidir. Uzun illər Azərbaycan təhsil sistemində, o cümlədən ali məktəblərdə tələbələrin müəllim seçimində heç bir rolu olmamışdır. Konkret sayda tələbələr müəyyən qruplara yerləşdirilmiş, hər qrup üçün müəllim müəyyənləşdirilmiş və tələbələr müəyyən edilmiş müəllimdən dərs almaq məcburiyyətində qalmışlar.

Sovetlər Birliyi dağıldıqdan sonra həyatın bir çox sahələrində olduğu kimi təhsildə də müəyyən dəyişikliklərə ehtiyac duyulmağa başladı. Belə dəyişikliklərdən biri ali təhsildə özəl bölmənin, başqa sözlə, özəl ali məktəblərin yaranması oldu. Özəl ali məktəblərin yaranması ilə Azərbaycan təhsilində bir sıra məsələlərdə olduğu kimi tələbə-müəllim münasibətlərində də yeni ab-hava formalaşmağa başladı. Tələbələrlə müəllimlər arasında quru, yuxarıdan aşağıya istiqamətlənmiş münasibət elementləri yavaş-yavaş təhsil verənlə təhsil alan arasında demək olar ki, bərabər hüquqlu münasibət çalarları almağa başladı. Belə münasibətlərin formalaşmasında Azərbaycanda ilk özəl ali məktəb olan Xəzər Universitəsinin kifayət qədər rolu vardır. Məhz Azərbaycanda ilk dəfə olaraq kredit təhsil modelini həyata keçirməyə başlayan (bu məsələdə hətta Avropanı təxminən 10 il qabaqlayan!) Xəzər Universitəsində müəllim seçimində tələbələr də bir tərəf kimi çıxış etməyə başladı. Belə ki, eyni fənni tədris edən müxtəlif müəllimlər arasında seçim etmək təcrübəsi həyata keçirilməyə başlandı. Bir qədər sonradan tələbələr müəllim seçiminə daha bir yolla təsir etmək imkanı qazandılar. 1997-ci ildən etibarən “Xəzər”də daha bir yenilik həyata keçirildi. Bu yenilik müəllimlərin seçimində tələbələrin fikirlərinə söykənmək, müəyyən

mənada müəllimləri tələbələrin gözü ilə süzgəcdən keçirərək seçmək təcrübəsi idi. Bu prosesin effektiv həyata keçirilməsi məqsədilə rəhbərlik tərəfindən müəyyənləşdirilmiş suallar üzrə tələbələr müəllimlərin fəaliyyətini 5 ballıq sistemlə qiymətləndirir və müəllimlər haqqında öz yazılı fikirlərini bildirirlər. Obyektivliyi tam təmin etmək məqsədilə proses tamamilə anonim şəkildə aparılır. Artıq, təxminən, 13 ildir ki, Xəzər Universitəsində "anonim tələbə sorğusu" keçirilir. İlk vaxtlar belə bir sorğunun keçirilməsinə narazılıq edən müəllimlərin sayı kifayət qədər olsa da, zaman keçdikcə hər şey öz yerini aldı və indi əksər müəllimlər bu sorğunun keçirilməsinə normal münasibət bəsləyir. Tələbələr tərəfindən qeyd edilmiş məqamları aradan qaldırmaq istiqamətində öz üzərində xüsusi işləyən müəllimlərimiz də az deyil. Aparılmış sorğular universitə nəşriyyatında dərc edilir və kitabxanada saxlanılır.

"Anonim tələbə sorğusu" keçirilməsinin əsas məqsədi "müəllimləri tələbələrin gözü ilə" süzgəcdən keçirmək olsa da, məhz həmin sorğular "tələbələri tələbələrin gözü və sözü ilə" süzgəcdən keçirmək üçün də dəyərli materiallarla doludur. Bu yazının məqsədi də məhz budur. Biz bu yazıda son 2 ildə keçirilmiş "anonim tələbə sorğusu" vasitəsilə, tələbələrin yazdığı materiallardan istifadə edərək, müəllimlər haqqında deyil, məhz tələbələr haqqında, onların mədəni səviyyəsi, dünyagörüşü, müəllimlərinə hörmət və məhəbbəti və ş. məqamlar haqqında fikir yürütməyə çalışacağıq.

## Yumor hissi

Məlumdur ki, acı həqiqəti söyləmək, onu qarşıdakına çatdırmaq üçün ən təsirli yollardan biri yumordur. Zaman-zaman birbaşa deməklə heç bir nəticə əldə edə bilmədiyimizləri öz ünvanına məhz guya dolayı yolla, əslində isə ən kəsə yolla - yumorla çatdırmağa çalışmışıq. Təsadüfi deyildir ki, ölməz əsərlər yaratmış Cəlil Məmmədquluzadə dedikdə yadımıza ilk olaraq onun başqa əsərləri deyil, məhz "Molla Nəsrəddin" düşür. Görəsən, "Molla Nəsrəddin"dən tələbələrimizə bir şey keçibmi? Beləliklə, tələbə sorğusunda "yumor ovuna" çıxdıq.

"Belə getsə, biz universiteti bitirəndən sonra əsl ərəb olacağıq" (Spring 2009, səh.1). Ərəb dili müəllimi Abdullah Abbas Suleyman haqqında öz xoş fikrini tələbələrdən biri maraqla belə ifadə etmişdir.

“Bu müəllimənin beyni də elə bil kompüterdi. Dərsə görə demirəm, amma dərsdən qaçanları yaxşı yadında saxlayir” (Spring 2009, səh.77).

Burada bir əhvalat yadıma düşdü. Danışmasam olmaz. Onu da deyim ki, bu, lətifə deyil, əhvalat iştirakçılarının hər ikisi mənim yaxın tanıdığım insanlardır: “Bir dəfə tanınmış, hörmətli professorlardan biri kitabla heç maraqlanmayan bir dostuna yenicə yazdığı bir kitabını bağışlayır. Bir müddət sonra həmin dostlar görüşürlər və dostu “çox əla kitabdır, gözəl kitabdır, malades” deyə professoru möhkəm-möhkəm tərifləyir. Professor yarıciddi, yarızarafat “sən allah, kitabı axıracan oxumusan?” – deyə dostundan soruşur. Dostu cavab verir: “Mən kitabın üzünü deyirəm, sən nəyi deyirsən?”.

“Mən semestr boyu bu müəllimdən ancaq “stop talking” sözünü eşitdim” (Spring 2009, səh.116). Bu məqam da mənim yadıma bir əhvalatı saldı: “Səhv etmirəmsə, 1995-1996-cı illər idi. O zaman bizim universitənin Gəncədə hazırlıq kursları var idi. Tələbələr orada əsasən ingilis dilini öyrənirdilər ki, Bakıya gələndə işləri bir az asan olsun. Həmin kurs cəmi 2 il mövcud oldu. Buraya gələn tələbələrin ingilis dili üzrə səviyyəsi bizi qane etmirdi. Vəziyyətin yerində araşdırılması və lazım gələrsə, kursların bağlanması üçün Gəncəyə bir komissiya göndərilməsi qərarlaşdırıldı. Komissiyaya ingilis dili müəllimi, rektor köməkçisi Əfqan Abdullayev və mən daxil edildik. Gəlib Gəncəyə çatdıq. Orada dərs deyən müəllimlərin və tələbələrin valideynlərinin iştirakı ilə bir toplantı keçirdik. Əsasən valideynlər danışır, biz dinləyirdik. Valideynlər kursun bağlana biləcəyi fikrinə etiraz edir, tələbələrin zəifliyinin səbəbini ingilis dili müəllimlərinin özlərinin zəif olmasında görürdülər. Valideynlərdən biri bir ingilis dili müəllimi haqqında lap sərt danışdı və fikrini belə tamamladı: “Burada hansı ingilis dilindən danışmaq olar ki, filan müəllim (o müəllimin adını çəkdi; təəssüf ki, həmin müəllimin adını unutmuşam, yoxsa mütləq yazardım; amma onu deyim ki, xeyli yaşlı bir kişi müəllim idi) “to be” ilə “does” dan başqa heç nə bilmir”. Hamı gülüşdü. Əfqan müəllim də bu fikrə güldü və yarızarafat, yarıciddi dedi: “Vallah, bir müəllim ki, ingilis dilində “to be” ilə “does”ı yaxşı bilir, ondan şikayətlənməyə əsas yoxdur”. Bu yumoru başa düşənlər yenə gülüşdülər.

“Mehmet müəllimin dərsində hamımız yatırıq. Allah ondan razı olsun, onun dərsi olmasa, yorğunluğumuzu necə çıxararıq, heç bilmirik” (Fall 2008, səh.92).

“Milana müəllimə yaxşı müəllimdir... Amma bilmirəm, nəsə məndən zəhləsi gedir... Mənə elə gəlir ki, hamısı çox istəməyindəndir” (Fall 2008, səh.93). “Üzünü az görmüşük, amma yaxşı insana oxşayır”; “Allah canını sağ eləsin, 4 ayda 6-7 dəfə üzünü gördük.” (Spring 2009, səh.6). “Xəyalə xanımın maaşını qaldırmağınızı tələb edirəm. Bu xanım universitetə ən çox xeyir verən müəllimədir. Hər semestr 40-dan artıq tələbəni kəsərək, universitetin büdcəsinə minlərlə dollar xeyir verir” (Fall 2008, səh.79). “Allah “Xəzər”in müəllimlərinin canını sağ eləsin. Mənə yaxşı bal yazırlar” (Fall 2008, səh.153). “Çox yaxşı müəllimdir. Üzümə gülə-gülə 4 semestrdi məni kəsir” (Spring, 2008, səh.22). “Dərdim çox böyükdür, danışsam qurtarmaz. Kseroks edən əmi var e, 1-ci mərtəbədə, ona təcili olaraq katibə lazımdır ki, arada onu yuxudan oyatsın... Samir ancaq qızların kserokslarını çıxarır. Oğlanlarınkı qalır. Belə olmaz” (Fall 2008, səh.160).

Bu fikirləri oxuyarkən bunu yazan tələbənin yumor hissinə “afərin” deməyə bilmirsən. Afərin sənə, ey adıbilinməz tələbə!

## Məntiq

“Ağalar müəllim-bizi dəryalara qərq edən müəllim” (Spring 2009, səh.5). Tələbənin fikrini anlamaq bir qədər çətindir. Əslində, “dəryalara qərq etmək” adamı yazıq etmək, dərdə-qəmə batırmaq mənası verir. Tələbənin Ağalar müəllim haqqında fikirlərini tam oxuduqda isə başqa xoş bir motiv hiss edilir. Tələbə öz fəlsəfə müəllimini adamı düşündürən, fəlsəfi fikrə daldıran bir müəllim kimi təsvir etmək istəmişdir. Yazdığı cümlə isə, əksinə!

“Rus dili dərsində rus sektorunun tələbələrinin olması az-sektor üçün ziyandır. Əgər bu dərs rus dilini bilməyənlər üçündürsə, burada rus sektorunun uşaqlarının nə işi var? Bu heç də ədalətli deyil!” (Spring 2009, səh.24). “Hansısa sözün tərcüməsini soruşduqda ingilis dilində izah edir. Daha fikirləşmir ki, mən başa düşsəydim, ondan soruşmazdım” (Spring 2009, səh.54).

Tamamilə haqlı, ədalətli, məntiqli iradlardır.

“Bu müəllim dəhşətdi, dəhşət. Oxuduqlarımızla heç vaxt qane olmur. O istəyir ki, biz onun beynindəki cavabı verək” (Spring 2009, səh.28). “Müəllim deyir ki, “verdiyim

açıq suallara elə cavab yazın ki, cavab mənim fikirləşdiyim kimi olsun. Ay müəllim, biz sizin nə fikirləşdiyininzi haradan bilək?” (Spring 2009, səh.64).

Təbii ki, tələbənin borcudur ki, suala doğru cavab versin. Müəllimin beynindəki cavab isə doğru cavabdır. Odur ki, tələbənin cavabı ilə (əgər cavab doğrudursa) müəllimin beynindəki cavab təxminən eyni olacaq. Burada söhbət cavabın məhz müəllimin beynində olan sözlər vasitəsilə ifadə olunmasından getmir.

“fəlsəfə fənni boş bir fəndir. Fənnin yoxluğundan bilmirlər nə fənn versinlər”. Tələbənin bu fikrinə elə oradaca başqa bir tələbə cavab verir. “Fəlsəfə yalnız kredit toplamaq üçün deyil, həm də özümüz üçün vacibdir” (Spring 2008, səh.4).

## Qayğı

“Mən Afaq xanımın dərsinə girəndə çox sevinirəm. Afaq xanımın maaşını artırın” (Spring 2009, səh.2). “Hörmətli rektor! Bəhlul müəllim bizə deyir ki, yanvardan bizə dərs deməyəcək. Xahiş edirəm onu hərtərəfli təmin edin ki, bizə dərs desin” (Fall 2008, səh.23). “Cabir müəllim, çox xahiş edirəm ki, “Ərəb-5”i Elnur müəllimə verin. Bu semestr qəsdən “Ərəb-5”dən kəsiləcəm ki, gələn semestr Elnur müəllim tədris etsin” (Fall 2008, səh.36). “Bir də tez əsəbiləşməyin. Heç kimə yox eee, sizə yazıqdır” (Fall 2008, səh.133).

Əlbəttə, öz tələbəsindən belə qayğı görmək bir müəllim üçün xeyli xoş və sevindiricidir. Ümid edirik ki, bu fikirlər başqa müəllimlərimizi də, öz tələbələri tərəfindən belə qiymətləndirmə naminə, daha da ürəkdən çalışmağa ruhlandıracaq.

## Kobudluq və mədəni səviyyə

Təəssüf ki, tələbələr öz müəllimləri haqqında bəzi hallarda elə ifadələr işlədirlər ki, onu dilə (qələmə!) gətirmək belə istəmirsən. Müəllimin də mənfi cəhətləri ola bilər, o da insandır. Amma müəllim haqqında belə tonda yazmaq, belə kobud sözlərdən istifadə etmək tələbəyə qəti başucalığı gətirmir. Mən burada bilərəkdən fikrin hansı müəllim haqqında deyildiyini yazmadan bəzi fikirləri misal gətirmək istəyirəm. “Bu müəllimənі heç bəyənmirəm. Mələk donuna girmiş şeytandır” (Spring 2009, səh.28).

“Zəhlə tökəndir” (Spring 2009, səh.40). “Adamlığı yoxdur... Elə bil divarla danışırsan... Başına daş düşsün” (Spring 2009, səh.49). “Bəzən gic-gic qanunlar çıxır” (Spring 2009, səh.139). “I hate you. Təkcə mən deyil, bütün universitet nifrət edir sizə” (Fall 2008, səh.9).

“Bu universitetdə yalnız bu müəllimin insaniyyətdən xəbəri var” (Spring 2008, səh.56). və s. Belə misalların sayı həddindən artıq çoxdur. Mən hələ bir qədər “toyagetməli” fikirləri seçdim.

## Hədə-qorxu

“Əgər özünü yığışdırmasa, axırı pis olacaq bu müəllimin. Özünü çox yekəxana kimi aparır” (Spring, 2009, səh.100). “Bəzi müəllimlər etik qaydalara riayət etsin. Unutmayın ki, hər bir tələbə affekt vəziyyətinə düşüb istənilən ağıla gəlməyən hərəkətlər edə bilər” (Spring 2009, səh.137). “Birinci və axırıncı dəfə olsun ki, bu cür dərs salırsınız. Sizin heç etdiyinizdən xəbəriniz var?” (Fall 2008, səh.97). “Belə müəllimdən ikisi də olsa, “Xəzər”dən qaçacam!!!” (Fall 2008, səh.131). “Sənə nə deyim, ay “Xəzər” adam universitetinə müəllim gətirəndə bilər ki, kimi gətirir. Bizi niyə zülmə salırsınız? Hər yerdə pisləyəcəm, qoy bura heç kim qəbul olmasın. Bu fənnin müəllimləri mənim ömrümün 5 ilini aldılar” (Fall 2008, səh.97).

Əslində, hədə-qorxu da kobudluğun bir forması olduğu üçün bu başlığa aid ayrıca şərh verməyə ehtiyac duymadıq.

## Tələbələr və Azərbaycan zərbi-məsəlləri

“Özündən çox razıdır. Elə bil alçaq dağları bu yaradıb” (Spring 2009, səh. 29). “... Dağ dağa rast gəlməsə də, insan insana rast gələr. Onda bizə etdiyi “hörməti” biz də ona geri qaytararıq” (Fall 2008, səh.151).

Məhz insanlar haqqında qiymətləndirmə apararkən, insani keyfiyyətləri müzakirə edərkən, zərbi-məsəllərdən, atalar sözlərindən, hikmətli sözlərdən tez-tez istifadə etmək üçün geniş meydan açılsa da, təəssüf ki, tələbələrimiz bu imkandan geniş istifadə etmirlər. Son 2 ildəki sorğularda cəmi yuxarıdakı 2 belə fikrə rast

gəldik. Bu da tələbələrin müqayisə bacarığının zəifliyindən və şifahi xalq ədəbiyyatına kifayət qədər maraq göstərməmələrindən, az oxumalarından irəli gəlir.

## Şairanəlik

Bununla belə, zərbi-məsəllərə çox həvəs göstərməsələr də, tələbələrimizdə şairanəlik xeyli hiss olunur:

"Həyatda ən gözəl şeydir ədalət
Məncə Firəngiz xanımdan yoxdur şikayət"
(Spring 2009, səh.47).

"Eşqdir mehrabı uca göylərin
Müəllimsiz ay tələbə, nədir dəyərin?"
(Fall 2008, səh.62).

"Gözəl üzlü Rəvanə
Getmə sən başqa yanə"
(Fall 2008, səh.118).

"Müəllimimiz Elnur
Saçır "Xəzə"rə nur"
(Spring 2008, səh.31).

Onu deyim ki, tələbələrimiz arasında xeyli sayda yaxşı, lirik şeirlər yazanlar var. Mən şəxsən o şeirlərdən bəzilərini oxumuşam. Çox yaxşı olardı ki, bu tələbələr öz şeirlərini dövri olraraq "Xəzər-xəbər"də dərc etdirsinlər ki, başqa tələbələr də "şair yoldaşları"nı tanısınlr.

## Diqqət

"Dərs-zad keçmir, bütün günü "agentdə" qızlarla danışır ( Spring 2009, səh.49). "Çox nazlı müəllimədir. Həmişə bizə göz süzür" (Fall 2008, səh.100).

“...Təvazökar olmaq lazımdır. Deyir savadlı adamların xətti pis olur. Özü də qəsdən pis yazır ki, biz deyək ki, bu savadlıdır” (Fall 2008, səh.134).

Ümid edirik ki, bundan sonra tələbələrimizin “normadan artıq diqqətli” olduqlarını nəzərə alaraq, bu fikirlərin özlərinə aid olduğunu görən müəllimlərimiz də xeyli diqqətli olacaqlar.

**Xeyir-dua**

“Allah sizi qorusun, Elza müəllimə, amin!” (Spring 2009, səh.39). “Sağ olsun, allah ondan razı olsun” (Spring 2009, səh.110). “Allah sizi bizim başımızın üstündən əskik eləməsin” (Fall 2008, səh.11). “Allah onu bizə çox görməsin” (Spring 2008, səh.55).

Bu səpkili fikirlərə sorğularda xeyli rast gəlirik. Verilən əməyin qarşılığı müxtəlif yollarla ifadə edilir. Bu yollardan biri də məhz xeyir-duadır ki, tələbələrimiz bundan sevə-sevə istifadə edirlər.

**Etiraf**

Amma nə olsa da, bəzən insafı itirsələr də, tələbəyə yaraşmayan sözlər yazsalar da, hərdən həqiqəti etiraf etməyi də bacarırlar tələbələrimiz. Kənan Allahverdiyev haqqında deyilən bir fikir: “Doğrusu, mən həmişə Kənan müəllim haqqında pis rəy yazmışam. Amma səhvim olub, çünki oxumamışam. Buna görə kimisə günahlandırmışam” (Fall 2008, səh.75).

Nə qədər səmimi və cəsarətli bir etiraf! Əgər bir tələbə ən azı bunu etiraf etməyə özündə güc tapıbsa, bu özü artıq həmin naməlum tələbənin həqiqətsevərliyindən xəbər verir. Belə tələbələrimiz isə, inanın ki, az deyil. Doğrusu, bir dənə belə fikri oxuyanda, əvvəlki arzuedilməz məqamları unutmaq istəyirsən, tələbə adına hörmətin artır, onlarla yaxşı münasibətdə olmaq, onlara həmişə inanmaq istəyirsən.

**İsaxan İsaxanlı**

***Mənbə:***

***Хязяр-Хябяр, (журнал) № 277, səh.10-13. 15 noyabr 2009. Хязяр Университяси***